Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi

**“Kiçik Sahibkarlığın İnkişafına dəstək” layihəsinin “Qadın sahibkarlığı” komponenti çərçivəsində çərçivəsində Azərbaycan Respublikası ərazisində 500 (beş yüz) qadın kiçik sahibkarlıq subyekti arasında keçirilmiş üzbəüz rəy sorğusunun nəticələri ilə əlaqədar**

# HESABAT

**24 sentyabr – 15 oktyabr 2018-ci il**
**Bakı şəhəri**

# MÜNDƏRİCAT

**Xülasə**......................................................................................................................**3**

**Rəy sorğusunun nəticələri** ..................................................................................**5**

**Əlavə 1. Rəy Sorğusu Anketi**.........................................................................................**43**

**“Kiçik Sahibkarlığın İnkişafına dəstək” layihəsinin “Qadın sahibkarlığı” komponenti çərçivəsində Azərbaycan Respublikası ərazisində 500 (beş yüz) qadın kiçik sahibkarlıq subyekti arasında keçirilmiş üzbəüz rəy sorğusu**

# XÜLASƏ

“Kiçik Sahibkarlığın İnkişafına dəstək” layihəsinin “Qadın sahibkarlığı” komponenti çərçivəsində Azərbaycan Respublikası ərazisində 500 (beş yüz) qadın kiçik sahibkarlıq subyekti arasında keçirilmiş üzbəüz rəy sorğusu 24 sentyabr – 15 oktyabr 2018-ci il tarixində həyata keçirilmişdir.

Sorğunun ərazisi əvvəlcədən razılaşdırılmış, Bakı şəhəri və Azərbaycanın 7 iqtisadi rayonunu əhatə edir. Sorğu keçirilmiş yaşayış məntəqələri və respondentlərin sayı üzrə bölgü aşağıdakı cədvəldə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, respondentlərin yaşayış məntəqələri üzrə bölgüsündə kiçik sahibkarlıq subyektlərinin sayı ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarından istifadə edilmişdir. Eyni zamanda, bütün qadın respondentlərlə üzbəüz sorğu məhz iş yerlərində və onların sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları müəyyənləşdirildikdən sonra keçirilmişdir.

**Cədvəl 1. Sorğu məntəqələri və respondentlərin sayı**

| № | İqtisadi rayon | Yaşayış məntəqəsinin adı | Respondentlərin sayı | Müraciət olunmuşdur | İmtina etmişdir |
|---|---|---|---|---|---|
| **1.** | | **Bakı** | **190** | **201** | **11** |
| **2.** | **Abşeron** | | **29** | **32** | **3** |
| | | Sumqayıt | 29 | 32 | 3 |
| **3.** | **Gəncə-Qazax** | | **81** | **88** | **7** |
| | | Gəncə | 60 | 66 | 6 |
| | | Tovuz | 21 | 22 | 1 |
| **4.** | **Şəki-Zaqatala** | | **37** | **37** | **-** |
| | | Şəki | 37 | 37 | - |
| **5.** | **Lənkəran** | | **32** | **41** | **9** |
| | | Lənkəran | 32 | 41 | 9 |
| **6.** | **Quba-Xaçmaz** | | **31** | **32** | **1** |
| | | Quba | 31 | 32 | 1 |
| **7.** | **Aran** | | **88** | **100** | **12** |
| | | Mingəçevir | 30 | 34 | 4 |
| | | Kürdəmir | 14 | 16 | 2 |
| | | Salyan | 14 | 17 | 3 |
| | | Şirvan | 30 | 33 | 3 |
| **8.** | **Dağlıq Şirvan** | | **12** | **15** | **3** |
| | | Şamaxı | 12 | 15 | 3 |
| | **Cəmi** | | **500** | **546** | **46** |

Sorğunun həyata keçirilməsi, lazımi məlumatların toplanması, sorğu nəticəsində əldə edilmiş məlumatların xüsusi statistik proqram (SPSS) ilə işlənməsi və nəticələrin analizi prosesində yüksəkixtisaslı mütəxəssislər iştirak etmişdir.

# RƏY SORĞUSUNUN NƏTICƏLƏRI

Qeyd edildiyi kimi rəy sorğusu 500 respondent arasında keçirilmişdir.

**1. Hansı sahədə sahibkarlıqla məşğulsunuz?**

Sual sorğuda iştirak etmiş 500 respondent tərəfindən cavablandırılmışdır. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 501 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 499 respondent, 2 cavab variantı – 1 respondent.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Aptek | 46 | 9,2 |
| 2 | Alqı-satqı | 44 | 8,8 |
| 3 | Çörək və şirniyyat bişirmə | 38 | 7,6 |
| 4 | Paltar tikmə | 36 | 7,2 |
| 5 | Gəlinlik və qonaqlıq paltarlarının icarəyə verilməsi | 32 | 6,4 |
| 6 | Tibbi xidmətlər | 29 | 5,8 |
| 7 | Qadın klubu | 28 | 5,6 |
| 8 | Xalça toxuma | 28 | 5,6 |
| 9 | İctimai iaşə sahəsində xidmətlər | 27 | 5,4 |
| 10 | Ev təmizləmə | 26 | 5,2 |
| 11 | Saç düzəni | 25 | 5,0 |
| 12 | Kompüter və kseroks xidmətləri | 17 | 3,4 |
| 13 | Corab toxuma | 17 | 3,4 |
| 14 | Azyaşlı uşaqlara baxım | 16 | 3,2 |
| 15 | Əl işləri | 13 | 2,6 |
| 16 | Dizayn, poliqrafiya və reklam | 11 | 2,2 |
| 17 | Müğənni, musiqiçi və aparıcı | 11 | 2,2 |
| 18 | Rəqs məktəbi | 11 | 2,2 |
| 19 | Süd məhsulları (yağ, qatıq, ayran, qaymaq, şor, pendir və digər) hazırlama | 9 | 1,8 |
| 20 | Kənd təsərrüfatı sahəsində | 7 | 1,4 |
| 21 | Uşaq əyləncə mərkəzi | 7 | 1,4 |
| 22 | İctimai iaşə | 6 | 1,2 |
| 23 | Mətbuat və nəşriyyat | 5 | 1,0 |
| 24 | Foto/Video xidmətləri | 5 | 1,0 |
| 25 | Maliyyə xidmətləri | 4 | 0,8 |
| 26 | Tekstil istehsalı | 3 | 0,6 |

| | | | |
|---|---|---|---|
| 27 | Konsaltinq xidməti | 0 | 0,0 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **501** | |

**2. Sahibkarlıqla məşğul olmağınızın səbəbləri hansılardır?**

Sualı respondentlərin hamısı cavablandırmışdır (500 respondent). Bu sualın da şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 688 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 332 respondent, 2 cavab variantı – 168 respondent.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Ailə/öz büdcənizə əlavə dəstək vermək | 298 | 44,6 |
| 2 | Bu fəaliyyəti sevirəm | 271 | 40,6 |
| 3 | Başqa bir şey bacarmıram | 97 | 14,5 |
| 4 | Maliyyə çatışmazlığı | 2 | 0,3 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **668** | |

**3. Zəhmət olmasa deyin, Sizin şəxsi sahibkarlıq fəaliyyətiniz hansı formada həyata keçirilir?**

Sualın cavablandırılmasında 500 respondent iştirak etmişdir.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar (fərdi sahibkarlar) | 374 | 74,8 |
| 2 | Hüquqi şəxs | 3 | 0,6 |
| 3 | Qeydiyyatsız | 123 | 24,6 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlərin 74,8%-i və ya 374 respondent Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən sahibkar olduğunu bildirmişdir. 24,6% və ya 123 respondent sahibkarlıq fəaliyyəti ilə qeydiyyatsız məşğul olduğunu qeyd etmişdir. Daha 0,6% və ya 3 respondent isə hüquqi şəxs olaraq fəaliyyət göstərdiyini söyləmişdir.

**4. Qadınlar sahibkarlıq fəaliyyətinə başladıqları zaman hansı çətinliklərlə üzləşir?**

Sual 500 respondent tərəfindən cavablandırılmışdır. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 551 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 449 respondent, 2 cavab variantı – 51 respondent.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Ailə etirazı | 309 | 56,1 |
| 2 | Maliyyə çatışmazlığı | 199 | 36,1 |
| 3 | Sahibkarlıq fəaliyyəti ilə əlaqəli xüsusi biliklərin azlığı | 42 | 7,6 |
| 4 | İctimai qınaq | 1 | 0,2 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **551** | |

**5. Son ildə hansı çətinliklərlə daha tez-tez üzləşirsiniz?**

Sualı 500 respondent cavablandırmışdır. Bu sualın da şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 771 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 251 respondent, 2 cavab variantı – 227 respondent, 3 cavab variantı – 22 respondent.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Maliyyə çatışmazlığı | 259 | 33,6 |
| 2 | Kadr çatışmazlığı | 178 | 23,1 |
| 3 | Ədalətsiz rəqabət | 111 | 14,4 |
| 4 | Vergi yükünün ağırlığı | 109 | 14,1 |
| 5 | Sahibkarlığı tənzimləyən qanunvericiliyin ağırlığı | 70 | 9,1 |
| 6 | Dövlət qurumlarının müdaxiləsi | 44 | 5,7 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **771** | |

**6. Zəhmət olmasa deyin, şəxsi biznesinizə ailə üzvləriniz də cəlb edilibmi?**

Sualın cavablandırılmasında 500 respondent iştirak etmişdir.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli | 59 | 11,8 |
| 2 | Xeyr | 441 | 88,2 |
| | **Cəmi** | **500** | **100,0** |




88,2% və ya 441 respondent bu sualı mənfi, 11,8% və ya 59 respondent isə müsbət cavablandırmışdır.

**7. Azərbaycan qadınının sahibkarlıqla məşğul olmaq həvəsini necə qiymətləndirirsiniz?**

Sual 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Yüksək | 429 | 85,8 |
| 2 | Orta | 40 | 8,0 |
| 3 | Aşağı | 21 | 4,2 |
| 4 | Cavab verməyə çətinlik çəkirəm | 10 | 2,0 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlərin 85,8%-i və ya 429 respondent Azərbaycan qadınının sahibkarlıqla məşğul olmaq həvəsini yüksək, 8,0% və ya 40 respondent orta, 4,2% və ya 21 respondent aşağı qiymətləndirmişdir. 2,0% və ya 10 respondent isə sualı cavablandırmaqda çətinlik çəkdiyini qeyd etmişdir.

**8. Azərbaycan qadınının sahibkarlıqla məşğul olmaq həvəsinin aşağı və ya orta olmasının səbəblərini qeyd edin.**

Sual 7-ci sualda "Yüksək" və "Cavab verməyə çətinlik çəkirəm" cavab variantlarını seçmiş respondentlərdən başqa respondentlərin hamısı və ya 61 respondent tərəfindən cavablandırılmışdır.




| | Çox vacibdir | Vacibdir | Vacib deyil | Mövcud durum məqbuldur |
|---|---|---|---|---|
| 1 Yaxınları etiraz edir | 7 | 19 | 35 | 0 |
| 2 Ehtiyat edir, qorxur | 18 | 37 | 4 | 2 |
| 3 Bilmir hansı sahibkarlıq fəaliyyəti uğurlu ola bilər | 33 | 26 | 1 | 1 |
| 4 Başlamaq üçün bilikləri yetərli deyil | 24 | 22 | 14 | 1 |
| 5 İlkin maliyyə yoxdur | 32 | 20 | 7 | 2 |
| 6 Yaxınlarının, tanışlarının uğursuzluğu | 5 | 1 | 48 | 7 |
| 7 Hüquq-mühafizə orqanları ilə üzləşmək istəmir | 6 | 12 | 14 | 29 |

Azərbaycan qadınının sahibkarlıqla məşğul olmaq həvəsinin aşağı və ya orta olmasının səbəbləri çox vacib olmasına görə aşağıdakı kimi sıralanmışdır:

1. Bilmir hansı sahibkarlıq fəaliyyəti uğurlu ola bilər (61 respondentdən 33-ü)
2. İlkin maliyyə yoxdur (61 respondentdən 32-si)
3. Başlamaq üçün bilikləri yetərli deyil (61 respondentdən 24-ü)
4. Ehtiyat edir, qorxur (61 respondentdən 18-i)
5. Yaxınları etiraz edir (61 respondentdən 7-si)
6. Hüquq-mühafizə orqanları ilə üzləşmək istəmir (61 respondentdən 6-sı)
7. Yaxınlarının, tanışlarının uğursuzluğu (61 respondentdən 5-i)

**9. Sizcə Azərbaycanda sahibkarlıq mühiti kimlər üçün daha əlverişlidir?**

Sualın cavablandırılmasında 500 respondent iştirak etmişdir.

| | | **Cavab sayı** | **Faiz** |
|---|---|---|---|
| 1 | Kişilər | 15 | 3,0 |
| 2 | Qadınlar | 96 | 19,2 |
| 3 | Fərqi yoxdur, mühit eynidir | 234 | 46,8 |
| 4 | Cavab verməyə çətinlik çəkirəm | 155 | 31,0 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlər əksəriyyət olaraq (46,8% və ya 234 respondent) "Fərqi yoxdur, mühit eynidir" cavab variantını seçmişlər. 31,0% və ya 155 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir. 19,2% və ya 96 respondent sahibkarlıq mühitinin qadınlar, 3,0% və ya 15 respondent isə kişilər üçün daha əlverişli olduğunu qeyd etmişdir.

**10. Biznesiniz üçün mövcud durumu necə qiymətləndirirsiniz?**

Sual sorğuda iştirak etmiş 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Olduqca əlverişli | 59 | 11,8 |
| 2 | Əlverişli | 210 | 42,0 |
| 3 | Nə yaxşı, nə pis | 183 | 36,6 |
| 4 | Əlverişsiz | 13 | 2,6 |
| 5 | Olduqca əlverişsiz | 3 | 0,6 |
| 6 | Cavab verməyə çətinlik çəkirəm | 32 | 6,4 |
| | **Cəmi** | **500** | **100,0** |



Sorğuda iştirak etmiş respondentlərin 42,0%-i və ya 210 respondent biznes üçün mövcud durumun əlverişli olduğunu qeyd etmişdir. Növbəti yerdə 36,6%-lə (və ya 183 respondent) "Nə yaxşı, nə pis" cavab variantı qərarlaşmışdır. Üçüncü yerdə 11,8%-lə (və ya 59 respondent) "Olduqca əverişli", dördüncü yerdə 6,4%-lə (və ya 32 respondent) "Cavab verməyə çətinlik çəkirəm", beşinci yerdə 2,6%-lə (və ya 13 respondent) "Əlverişsiz" və altıncı yerdə 0,6%-lə (və ya 3 respondent) "Olduqca əlverişsiz" cavab variantları durur.

**11. Son bir ildə biznesiniz genişlənibmi?**

Bu sual da sorğuda iştirak etmiş bütün respondentlər (500 nəfər) tərəfindən cavablandırılmışdır.

| | | **Cavab sayı** | **Faiz** |
|---|---|---|---|
| 1 | Bəli, xeyli | 66 | 13,2 |
| 2 | Qismən | 195 | 39,0 |
| 3 | Nə artmayıb, nə də azalmayıb | 219 | 43,8 |
| 4 | Cavab verməyə çətinlik çəkirəm | 20 | 4,0 |
| | **Cəmi** | **500** | **100,0** |




Gördüyümüz kimi biznesi dəyişməz qalanlar üstünlük təşkil edir (43,8% və ya 219 respondent). Biznesi qismən genişlənmiş respondentlər 39,0%-dir (və ya 195 respondent). Daha 13,2% və ya 66 respondentin biznesi xeyli genişlənmişdir. Sorğuda iştirak edənlərin 4,0%-i və ya 20 respondent bu sualı cavablandırmağa çətinlik çəkdiyini bildirmişdir.

**12. Biznes sahəsində fəaliyyətinizi genişləndirməyi planlaşdırırsınızmı?**

Sualın cavablandırılmasında 500 respondent iştirak etmişdir.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli, yaxın üç ay ərzində | 39 | 7,8 |
| 2 | Bəli, altı ay ərzində | 39 | 7,8 |
| 3 | Bəli, bir il ərzində | 27 | 5,4 |
| 4 | Xeyr | 258 | 51,6 |
| 5 | Cavab verməyə çətinlik çəkirəm | 137 | 27,4 |
| | Cəmi | 500 | 100,0 |




Sorğuda iştirak etmiş respondentlərin 51,6%-i və ya 258 respondent yaxın zamanlarda biznesini genişləndirməyi planlaşdırmadığını qeyd etmişdir. 27,4% və ya 137 respondent cavab verməyə çətinlik çəkdiyini bildirmişdir. Növbəti yerlərdə 7,8%-lə (və ya 39 respondent) "Bəli, yaxın üç ay ərzində", eynilə 7,8%-lə (və ya 39 respondent) "Bəli, altı ay ərzində" və 5,4%-lə (və ya 27 respondent) "Bəli, bir il ərzində" cavab variantları durur.

**13. Son bir ildə dövlət orqanlarından Sizin ofisə yoxlama məqsədi ilə tez-tezmi gəlirlər?**

Sualı 500 respondent cavablandırmışdır.




| | Ən azı həftədə bir dəfə | Ən azı ayda bir dəfə | Ən azı yarım ildə bir dəfə | Ən azı ildə bir dəfə | Hələ gəlməyib |
|---|---|---|---|---|---|
| Vergilər Nazirliyi | | 4 | 29 | 33 | 434 |
| İqtisadiyyat Nazirliyi | | 1 | | 2 | 497 |
| Fövqəladə Hallar Nazirliyi | | 1 | 4 | 4 | 491 |
| Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | | | 2 | 2 | 496 |
| Polis | | 2 | 38 | 20 | 440 |
| Dövlət Təhlükəsizlik Xidməti | | | 5 | 3 | 492 |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | | | 2 | 5 | 493 |
| Rayon İcra Hakimiyyəti | | 6 | 33 | 18 | 443 |
| Sanitar-Epidiomoloji qurumlarından | | 7 | 22 | 23 | 448 |

Əgər ən azı ayda bir dəfə gələnlər siyahısında birincilik Sanitar-Epidemioloji qurumlara məxsusdursa, hələ ki, gəlməyənlər siyahısına İqtisadiyyat Nazirliyi başçılıq edir. Aşağıdakı siyahıda dövlət orqanlarının yoxlama məqsədi ilə gəlmələri sualının cavab variantlarına uyğun olaraq birincilik əldə etmiş dövlət orqanlarının adları öz əksini tapmışdır.

1. Ən azı ayda bir dəfə Sanitar-Epidemioloji qurumlardan (21 cavabdan 33,3%-i və ya 7 respondent)
2. Ən azı yarım ildə bir dəfə - Polis (135 cavabdan 28,1%-i və ya 38 respondent)
3. Ən azı ildə bir dəfə - Vergilər Nazirliyi (110 cavabdan 30,0%-i və ya 33 respondent)
4. Hələ ki gəlməyib – İqtisadiyyat Nazirliyi (4 234 cavabdan 11,2%-i və ya 497 respondent)

Sual üzərindən daha bir reytinq tərtib olunmuşdur. Bu reytinq, dövlət orqanlarının gəlmədiyini özündə əks etdirir. Respondentlərin cavabları aşağıdakı nəticələri əldə etməyə imkan vermişdir (bütün hallarda 500 respondentin cavab variantları nəzərə alınmışdır):

1. İqtisadiyyat Nazirliyi (99,4% və ya 497 respondent);
2. Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (99,2% və ya 496 respondent);
3. Ekologiya və Təbii Sərvətlər Nazirliyi (98,6% və ya 493 respondent);
4. Dövlət Təhlükəsizlik Xidməti (98,4% və ya 492 respondent);
5. Fövqəladə Hallar Nazirliyi (98,2% və ya 491 respondent);
6. Sanitar-Epidemioloji qurumlar (89,6% və ya 448 respondent);
7. Rayon İcra Hakimiyyəti (88,6% və ya 443 respondent);
8. Polis (88,0% və ya 440 respondent);
9. Vergilər Nazirliyi (86,8% və ya 434 respondent)

**14. Müşahidələrinizə əsasən, son bir ildə məmurların ziyarəti (tək Sizi deyil, ümumiyyətlə) daha çox hansı məqsəd daşıyır?**

Sualın cavablandırılmasında 500 respondent iştirak etmişdir. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 502 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 498 respondent, 2 cavab variantı – 2 respondent.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Cavab verməyə çətinlik çəkirəm | 286 | 57,0 |
| 2 | Qanuni yoxlama | 210 | 41,8 |
| 3 | Aylıq və ya illik qeyri-rəsmi haqq tələbi | 6 | 1,2 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **502** | |

**15. 2016-cı ilin əvvəlindən korrupsiyanın azaldılması məqsədilə ölkə rəhbərliyi tərəfindən bir sıra ciddi addımlar atılmışdır. Siz bunun nəticəsində son bir ildə rüşvət tələblərinin azalmasını artıq hiss edirsinizmi?**

Sual 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli, vəziyyət xeyli yaxşılaşıb | 159 | 31,8 |
| 2 | Vəziyyət qismən yaxşılaşıb | 255 | 51,0 |
| 3 | Dəyişiklik hələ hiss olunmur | 40 | 8,0 |
| 4 | Cavab verməyə çətinlik çəkirəm | 46 | 9,2 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlərin 51,0%-i və ya 255 respondent vəziyyətin qismən yaxşılaşdığını qeyd etmişdir. 31,8% və ya 159 respondent vəziyyətin xeyli yaxşılaşdığını, 8,0% və ya 40 respondent dəyişiklik hələ hiss olunmadığını vurğulamışdır. Sorğuda iştirak etmiş respondentlərin 9,2%-i və ya 46 respondent bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

**16. Sizcə sizin rəqiblərinizin qeyri-rəsmi ödənişləri son bir ildə onların xərclərinin neçə faizini təşkil edər?**

Sual 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | 0-10 faizi | 70 | 14,0 |
| 2 | 10-20 faizi | 156 | 31,2 |
| 3 | 20-40 faizi | 155 | 31,0 |
| 4 | 40-60 faizi | 68 | 13,6 |
| 5 | 60-80 faizi | 5 | 1,0 |
| 6 | Cavab verməyə çətinlik çəkirəm | 46 | 9,2 |
| | Cəmi | 500 | 100,0 |




Cavab variantları aşağıdakı kimi sıralanmışdır.

1. 10-20% – 31,2% və ya 156 respondent
2. 20-40% – 31,0% və ya 155 respondent
3. 0-10% – 14,0% və ya 70 respondent
4. 40-60% – 13,6% və ya 68 respondent
5. Cavab verməyə çətinlik çəkirəm – 9,2% və ya 46 respondent
6. 60-80% – 1,0% və ya 5 respondent

**17. Siz son bir ildə işlədiyiniz iqtisadiyyat sektorunda rəqabət şərtlərini necə qiymətləndirirsiniz?**

Bu sual da sorğuda iştirak etmiş bütün respondentlər (500 respondent) tərəfindən cavablandırılmışdır.

| | | **Cavab sayı** | **Faiz** |
|---|---|---|---|
| 1 | Tam ədalətlidir | 103 | 20,6 |
| 2 | Qismən ədalətlidir | 333 | 66,6 |
| 3 | Qismən ədalətsizdir | 11 | 2,2 |
| 4 | Tam ədalətsizdir | 1 | 0,2 |
| 5 | Cavab verməyə çətinlik çəkirəm | 52 | 10,4 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlərin 66,6%-i və ya 333 respondent rəqabət şərtlərini qismən ədalətli sayır. 20,6% və ya 103 respondent isə rəqabət şərtlərinin tam ədalətli olduğunu qeyd etmişlər. 2,2% və ya 11 respondent rəqabət şəraitinin qismən ədalətsiz, daha 0,2% və ya 1 respondent isə tam ədalətsiz olduğunu vurğulamışdır. 10,4% və ya 52 respondent bu sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir.

**18. Sizin fəaliyyət praktikanızda son bir ildə lisenziya əldə edilməsi olubmu?**

Sual 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli | 91 | 18,2 |
| 2 | Xeyr | 409 | 81,8 |
| | Cəmi | 500 | 100,0 |




Sorğuda iştirak etmiş respondentlərin yalnız 18,2%-i və ya 91 respondent lisenziya almalı olduğunu bildirmişdir.

**19-cu sual 18-ci sualda lisenziya almalı olmuş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 21-ci sualdan başlayaraq sorğu davam etdirilmişdir.**

**19. Lisenziya almaq Sizə çətinmi olub?**

Bu sualın cavablandırılmasında 91 respondent iştirak etmişdir.

| | | Cavab sayı | Faiz, cavabverənlərin sayından |
|---|---|---|---|
| 1 | Bəli | 23 | 25.2 |
| 2 | Xeyr | 68 | 74.8 |
| | **Cəmi** | **91** | **100.0** |




Gördüyümüz kimi yalnız 25,3% və ya 12 respondent lisenziya alarkən müəyyən çətinliklərlə üzləşdiyini qeyd etmişdir.

**20-ci sual sorğunun şərtlərinə uyğun olaraq 19-cu sualda lisenziya alarkən çətinliklərlə üzləşmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 22-cü sualdan başlayaraq davam etdirilmişdir.**

**20. Çətinliklər nədən ibarət olub?**

Sualın cavablandırılmasında 23 respondent iştirak etmişdir. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 23 respondent 46 cavab variantı səsləndirmişdir: 2 cavab variantı – 23 respondent.

| | | Sayı | Faiz, cəmi cavabların sayından |
|---|---|---|---|
| 1 | Lisenziyanın alınması üçün çox vaxtın sərf olunması | 16 | 34,8 |
| 2 | Qaydalar birmənalı və aydın deyil | 14 | 30,4 |
| 3 | Lisenziya verən qurumda süründürməçilik | 11 | 23,9 |
| 4 | Lisenziya almaq üçün müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması | 5 | 10,9 |
| | **Cəmi respondent sayı** | **23** | |
| | **Cəmi cavab sayı** | **46** | |

**21. Fikrinizcə sahibkarlıq fəaliyyəti üçün lisenziya və ya hər hansı icazə almaq rüşvətsiz mümkündürmü?**

Sual 91 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz, cavabverənlərin sayından |
|---|---|---|---|
| 1 | Bəli | 80 | 87,9 |
| 2 | Bəli, lakin asan deyil, çox vaxt və əsəb itirirsən | 10 | 11,0 |
| 3 | Xeyr | 1 | 1,1 |
| | **Cəmi** | **91** | **100,0** |




Sualı cavablandırmış respondentlərin mütləq əksəriyyəti (87,9% və ya 80 respondent) rüşvətsiz lisenziya almağın mümkün olduğunu qeyd etmişlər. 2,0% və ya 10 respondent bunun asan olmadığını vurğulamışdır. Yalnız 0,2% və ya 1 respondent rüşvətsiz lisenziya almaq mümkün olmadığını bildirmişdir.

**22. Siz son bir ildə daşınmaz əmlakınızı qeydiyyatdan keçirməli olmusunuzmu?**

Bu sualın cavablandırılmasında 500 respondent iştirak etmişdir.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli | 5 | 1,0 |
| 2 | Xeyr | 495 | 99,0 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlərin yalnız 1,0%-i və ya 5 respondent daşınmaz əmlakını qeydiyyatdan keçirdiyini bildirmişdir.

**23-cü sual yalnız 22-ci sualda əmlakını qeydiyyatdan keçirmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 26-cı sualdan başlayaraq davam etdirilmişdir.**

**23. Daşınmaz əmlakınızı qeydiyyatdan keçirmək çətinmi olub?**

Sual 5 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz, cəmi cavabların sayından |
|---|---|---|---|
| 1 | Bəli | 4 | 80,0 |
| 2 | Xeyr | 1 | 20,0 |
| | **Cəmi** | **5** | **100,0** |




Əmlakını qeydiyyatdan keçirmiş respondentlərin 80,0%-i və ya 4 respondent qeydiyyat zamanı müəyyən çətinliklərlə üzləşdiyini qeyd etmişdir.

**24-cü sual sorğunun şərtlərinə uyğun olaraq 23-cü sualda əmlakı qeydiyyatdan keçirərkən çətinliklərlə üzləşmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 25-ci sualdan başlayaraq davam etdirilmişdir.**

**24. Çətinliklər nədən ibarət olub?**

Sual 4 respondent tərəfindən cavablandırılmışdır. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 4 respondent 7 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 1 respondent, 2 cavab variantı – 3 respondent.

| | | **Sayı** | **Faiz, cəmi cavabların sayından** |
|---|---|---|---|
| 1 | Müvafiq dövlət qurumunda süründürməçilik | 3 | 42,9 |
| 2 | Müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması | 3 | 42,9 |
| 3 | Qaydalar birmənalı və aydın deyil | 1 | 14,2 |
| | **Cəmi respondent sayı** | **4** | |
| | **Cəmi cavab sayı** | **7** | |

**25. Fikrinizcə sahibkarlıq fəaliyyəti üçün daşınmaz əmlakın qeydiyyatdan keçirilməsi rüşvətsiz mümkündürmü?**

Sualı 5 respondent cavablandırmışdır.

| | | Cavab sayı | Faiz, cəmi cavabların sayından |
|---|---|---|---|
| 1 | Bəli | 2 | 40,0 |
| 2 | Bəli, lakin asan deyil, çox vaxt və əsəb itirirsən | 1 | 20,2 |
| 3 | Xeyr | 2 | 20,0 |
| | **Cəmi** | **5** | |




Hər biri 40,0% və ya 2 respondent olmaqla əmlakın rüşvətsiz qeydiyyatdan keçirilməsinin mümkün olduğunu və mümkün olmadığını vurğulamışlar. Daha 20,0% və ya 1 respondent rüşvətsiz çox vaxt və əsəb itirildiyini bildirmişdir.

**26. Biznesiniz üçün maliyyə vəsaiti tələb olunanda bir qayda olaraq onu hansı mənbədən əldə edirsiniz?**

Sual 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz |
|---|---|---|---|
| 1 | Banklardan | 423 | 84,6 |
| 2 | Dost-tanışdan | 69 | 13,8 |
| 3 | Öz imkanlarım hesabına | 8 | 1,6 |
| | **Cəmi** | **500** | **100,0** |




Respondentlərin 84,6%-i və ya 423 respondent banklara müraciət etdiyini bildirmişdir. 13,8% və ya 69 respondent dost-tanışın imkanlarından istifadə etməyə üstünlük vermişdir. Daha 1,6% və ya 8 respondent öz imkanları hesabına maliyyə problemlərini həll etməyi düzgün hesab etmişdir.

**27. Bankların təklif etdiyi kreditlərin şərtlərində sizi nə qane etmir?**

Sualın cavablandırılmasında respondentlərin hamısı (500 respondent) iştirak etmişdir. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 680 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 324 respondent, 2 cavab variantı – 172 respondent, 3 cavab variantı – 4 respondent.

| | | Sayı | Faiz, cəmi cavabların sayından |
|---|---|---|---|
| 1 | İllik faiz dərəcləri yüksəkdir | 484 | 71,2 |
| 2 | Zamin tələb edirlər | 105 | 15,4 |
| 3 | Çoxlu sənədlər tələb edirlər | 58 | 8,5 |
| 4 | Kreditləri qısa müddətə verirlər | 15 | 2,2 |
| 5 | Girovları düzgün qiymətləndirmirlər | 16 | 2,4 |
| 6 | Krediti vaxtında almaq mümkün olmur | 1 | 0,1 |
| 7 | Milli valyutada kredit almaq olmur | 1 | 0,1 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **680** | |

**28. Siz son bir ildə Sahibkarlığa Kömək Milli Fonduna kredit almaq üçün müraciət etmisinizmi?**

Sualı 500 respondent cavablandırmışdır.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli | 6 | 1,2 |
| 2 | Xeyr | 314 | 62,8 |
| 3 | Mən ümumiyyətlə belə fondun varlığı haqqında eşitməmişəm | 180 | 36,0 |
| | **Cəmi** | **500** | **100,0** |




Sorğuda 500 qadın sahibkarlıq subyektinin iştirak etdiyini və eyni zamanda, sorğu ərazisinin genişliyinə baxmayaraq, respondentlərin yalnız 1,2%-i və ya 6 respondent Sahibkarlığa Kömək Milli Fonduna müraciət etdiyini bildirmişdir. 62,8% və ya 314 respondent bu fonda müraciət etmədiyi, 36,0% və ya 180 respondentin isə belə bir fondu ümumiyyətlə tanımadığı məlum olmuşdur.

**29-cu sual yalnız 28-ci sualda "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 31-ci sualdan başlayaraq davam etdirilmişdir.**

**29. Fonddan kredit aldıqda hansı çətinliklərlə üzləşirsiniz?**

Sualın cavablandırılmasında 6 respondent iştirak etmişdir.

| | | Cavab sayı | Faiz, cəmi cavabların sayından |
|---|---|---|---|
| 1 | Sənədləşmənin çoxluğu | 5 | 83,3 |
| 2 | İstədiyim qədər vəsait ala bilmirəm | 1 | 16,7 |
| | **Cəmi** | **6** | **100** |




Fonda müraciət etmiş respondentlərin 83,3%-i və ya 5 respondent sənədləşmənin çoxluğunu, 16,7% və ya 1 respondent isə istədiyi qədər vəsait ala bilmədiyini qeyd etmişdir.

**30. Kredit alarkən SKMF-nin agent bankında əlavə xərclər (rüşvət) tələb edilibmi?**

Sualın cavablandırılmasında 6 respondent iştirak etmişdir.

| | **Cavab sayı** | **Faiz, cəmi cavabların sayından** |
|---|---|---|
| Xeyr | 5 | 83,3 |
| Cavabdan imtina edirəm | 1 | 16,7 |
| Cəmi | 6 | **100** |




83,3% və ya 5 respondent əlavə xərclər (rüşvət) tələb edilmədiyini qeyd etmişdir. 16,7% və ya 1 respondent sualı cavablandırmaqdan imtina etmişdir.

**31. Banklardan kredit almaq nə qədər əlavə xərclər (rüşvət) tələb edir?**

Sualı 500 respondent cavablandırmışdır.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Kredit məbləğinin 0 - 2 faizi | 6 | 1,2 |
| 2 | Kredit məbləğinin 2 - 5 faizi | 177 | 35,4 |
| 3 | Kredit məbləğinin 5-10 faizi | 305 | 61,0 |
| 4 | Kredit məbləğinin 10-20 faizi | 11 | 2,2 |
| 5 | Kredit məbləğinin 20 faizindən çox | 1 | 0,2 |
| | **Cəmi** | **500** | **100,0** |




Cavab variantları aşağıdakı kimi sıralanmışdır.

1. Kredit məbləğinin 5-10 faizi – 61,0% və ya 305 respondent
2. Kredit məbləğinin 2-5 faizi – 35,4% və ya 177 respondent
3. Kredit məbləğinin 10-20 faizi – 2,2% və ya 11 respondent
4. Kredit məbləğinin 0-2 faizi – 1,2% və ya 6 respondent
5. Kredit məbləğinin 20 faizindən çox – 0,2% və ya 1 respondent

**32. Siz son bir ildə lizinq xidmətlərindən istifadə etmisinizmi?**

Bu suala 500 respondent cavab vermişdir.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli | 1 | 0,2 |
| 2 | Xeyr | 494 | 98,8 |
| 3 | Cavab verməyə çətinlik çəkirəm | 5 | 1,0 |
| | **Cəmi** | **500** | **100,0** |




Sualı yalnız 0,2% və ya 1 respondent müsbət cavablandırmışdır. 98,8% və ya 494 respondent "Xeyr", 1,0% və ya 5 respondent isə "Cavab verməyə çətinlik çəkirəm" cavab variantlarını seçmişdir.

**33-cü sual 32-ci sualda "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. "Xeyr" cavab variantı seçmiş respondentlərlə sorğu 35-ci sualdan, "Cavab verməkdə çətinlik çəkirəm" cavab variantı seçmiş respondentlərlə isə sorğu 36-cı sualdan başlayaraq davam etdirilmişdir.**

**33. Sizi bu xidmətdə nə qane etmir?**

Sualı 1 respondent cavablandıraraq şərtlərin ağır olduğunu bildirmışdır.

**34-cü sual 32-ci sualda "Xeyr" cavab variantını seçmiş respondentlərə verilmişdir.**

**34. Səbəbini qeyd edərdiniz?**

Sual 494 respondent tərəfindən cavablandırılmışdır.

| | | Cavab sayı | Faiz, cəmi cavabların sayından |
|---|---|---|---|
| 1 | Bu xidmət barədə məlumatım yoxdur | 219 | 44,3 |
| 2 | Şərtləri ağırdır | 275 | 55,7 |
| | **Cəmi** | **494** | **100,0** |




Əgər sualı cavablandırmış respondentlərin 56,1%-i və ya 275 respondent şərtlərin ağır olduğunu qeyd etmişdirsə, 43,9%-i və ya 219 respondent bu xidmət haqqında məlumatı olmadığını bildirmişdir.

**35. Siz son bir ildə özünüzü məmurların özbaşınalığından müdafiə olunmuş hesab edirsinizmi?**

Sualı 500 respondent cavablandırılmışdır.

| | | Sayı | Faiz |
|---|---|---|---|
| 1 | Bəli | 131 | 26,2 |
| 2 | Qismən | 304 | 60,8 |
| 3 | Xeyr | 18 | 3,6 |
| 4 | Cavab verməyə çətinlik çəkirəm | 47 | 9,4 |
| | **Cəmi** | **500** | **100,0** |




Sorğuda iştirak etmiş respondentlərin 60,8%-i və ya 304 respondent məmur özbaşınalığından qismən müdafiə olunduğunu vurğulamışdır. Respondentlərin 26,2%-i və ya 131 respondent tam qorunduğunu qeyd etdiyi halda, 3,6% və ya 18 respondent

müdafiə olunmadığını bildirmişdir. 9,4% və ya 47 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir

**36. Fikrinizcə, vergi sistemində nəyi dəyişmək lazımdır?**

Bu sualı 500 respondent cavablandırmışdır. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 500 respondent 832 cavab variantı səsləndirmişdir: 1 cavab variantı – 175 respondent, 2 cavab variantı – 318 respondent, 3 cavab variantı – 7 respondent.

| | | **Sayı** | **Faiz, cəmi cavabların sayından** |
|---|---|---|---|
| 1 | 1. Vergi dərəcələrini aşağı salmalı | 257 | 30,9 |
| 2 | 2. Vergilərin sayını azaltmalı | 261 | 31,4 |
| 3 | 3. Kadrları dəyişməli | 7 | 0,8 |
| 4 | 4. Dəyişkliklərə ehtiyac yoxdur | 127 | 15,3 |
| 5 | 5. Vergi ödəyicilərinin hüquqlarının artırılması | 146 | 17,5 |
| 6 | 7. Cavab verməyə çətinlik çəkirəm | 34 | 4,1 |
| | **Cəmi respondent sayı** | **500** | |
| | **Cəmi cavab sayı** | **832** | |

**37. Siz son bir ildə xarici ticarət əməliyyatları ilə məşğul olursunuzmu?**

Sual sorğuda iştirak etmiş 500 respondent tərəfindən cavablandırılmışdır.

| | | **Sayı** | **Faiz** |
|---|---|---|---|
| 1 | Bəli | 61 | 12,2 |
| 2 | Xeyr | 432 | 86,4 |
| 3 | İndi xeyr, əvvəllər olurdum | 7 | 1,4 |
| | **Cəmi** | **500** | **100,0** |




Gördüyümüz kimi respondentlərin mütləq əksəriyyəti (86,4% və ya 432 respondent) xarici ticarət əməliyyatları ilə məşğul olmadığını bildirmişdir. 1,4% və ya 7 respondent isə əvvəllər xarici ticarət əməliyyatları ilə məşğul olduğunu qeyd etmişdir. Yalnız 12,2% və ya 61 respondent xarici ticarət əməliyyatları ilə məşğul olduğunu vurğulamışıdır.

**38-ci sual 37-ci sualda yalnız "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. Digər cavab variantları seçmiş respondentlər 39-cu sualdan başlayaraq sorğunu davam etdirmişlər.**

**38. Xarici ticarət əməliyyatlarını həyata keçirərkən sənədlərin rəsmiləşdirilməsi prosedurlarının sayını və mürəkkəbliyini Siz necə qiymətləndirirsiniz?**

Bu sualın cavablandırılmasında 61 respondent iştirak etmişdir.

| | | **Cavab sayı** | **Faiz, cəmi cavabların sayından** |
|---|---|---|---|
